**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş tələbə, magistr və doktorantlar arasında keçirilən elmi məqalə**

# MÜSABİQƏSİNİN ŞƏRTLƏRİ

Müsabiqəyə təqdim ediləcək materiallar aşağıdakı mövzulardan birini əhatə etməlidir:

- Yeni dövrün iqtisadi çağırışları. İqtisadi islahatlar;
- “Made in Azerbaijan” brendinin təbliği;
- Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı;

Müsabiqədə hazırda orta ixtisas, bakalavr, magistratura və doktorantura təhsil pilləsində oxuyan şəxslər iştirak edə bilərlər.

Müsabiqəyə təqdim ediləcək məqalələr 8 səhifədən az olmamalı (Arial formatı, 12 yazı ölçüsü və 1,5 sətir aralığı), Azərbaycan, rus və ingilis dillərinin birində təqdim edilməlidir.

Müsabiqəyə təqdim olunmuş elmi məqalələr aşağıdakı tələblərə cavab verməlidir:

- Materialın nəzərdə tutulan istiqaməti dolğun əhatə etməsi;
- Analitik keyfiyyətlər, faktların və məsələlərin düzgün təhlili;
- Qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisə;
- Mövzu üzrə yeni təkliflərin qeyd olunması;
- Mənbələrə istinad edilərkən müəllif hüquqlarına ciddi şəkildə riayət edilməsi.

Məqalələr 2018-ci ilin 1 may tarixinədək müəllifin şəxsiyyət vəsiqəsinin və müvafiq təhsil müəssisəsində təhsil almasını təsdiq edən sənədin elektron surəti ilə birlikdə vusala.guliyeva@economy.gov.az ünvanına təqdim olunmalıdır.

Təqdim edilmiş məqalələr İqtisadiyyat Nazirliyində yaradılmış Komissiya tərəfindən 10 may 2018-ci il tarixinədək qiymətləndiriləcək və qaliblər mükafatlandırılacaqdır.

**Müsabiqə ilə bağlı əlavə məlumatı İqtisadiyyat Nazirliyindən əldə etmək olar**
(Ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84 (Hökumət Evi), 10-cu mərtəbə, 1004-cü otaq, tel: 493-88-67 (daxili 20-45), əlaqələndirici şəxs Vüsalə Quliyeva).